*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## XI. Kızıl Ordu'nun Nahçıvan'ı İşgali ve Bolşevik Terörünün Başlangıcı

*An Occupation of Nakhchivan By XI Red Army and The Beginning of the Bolshevik Terror*

**doi**: 10.58646/bengi.1498888

**Geliş/Received:** 10 Haziran 2024 **Kabul/Accepted:** 18 Ağustos 2024

**Əzizə Nəzərli***

**Özet**

Makale, RSFSR'nin işgalci XI Kızıl Ordusunun 1920'de eski Azerbaycan toprağı Nahçıvan'daki eylemlerini vurgulamaktadır. Ana tarihi kaynak, 1920-1921 yıllarında Türkiye'nin geçici acil durum temsilcisi olarak Nahçıvan'da bulunan Türk General Veysal Ünüvar'ın anılarıdır. Makale Sovyet işgalinin vahim sonuçlarını inceliyor.

**Anahtar Kelimeler**: Azerbaycan Cumhuriyeti, Nahçıvan, XI. Kızıl Ordu, İşgal, Ünüvar.

* **Sorumlu Yazar/Corresponding author**: Azerbaycan Milli İlimler Akademisi, e-posta: azizaenvernazarli@mail.ru. Orcid: 0009-0005-8947-4679.

**Atıf/Citation:** Mutlu, C. (2024). XI. Kızıl Ordu'nun Nahçıvan'ı İşgali ve Bolşevik Terörünün Başlangıcı. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (3), 413-422.

**Abstract**

The article highlights the actions of the occupation XI Red Army of the RSFSR in the ancient Azerbaijani land of Nakhchivan in 1920. The main historical source is the memoirs of the Turkish General Veysal Unuvar, who in 1920-1921 was in Nakhchivan in the status of temporary extraordinary representative of Turkey. The grave consequences of the Soviet occupation are examined in the article.

**Keywords**: Azerbaijan Republic, Nakhchivan, XI. Red Army, occupation, Unuvar.

## Giriş

1918-ci ilin mayında Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yarandıqdan sonra daşnak hökuməti İngiltərə və ABŞ-ın dəstəyi ilə Naxçıvanın Ermənistan Respublikasına birləşdirilməsi siyasətini həyata keçirməyə başladı. Lakin bölgəyə göndərilən türk əsgərlərinin köməyi və yerli əhalinin müqaviməti nəticəsində Ermənistanın ərazi iddiaları reallaşmadı (Naxçıvan Ensiklopediyası, 2002: 342). Erməni hərbi birləşmələrinin təcavüzündən Naxçıvanın müdafiəsində Osmanlı ordusunun I Qafqaz korpusunun komandanı Kazım Qarabəkir paşanın böyük əməyi vardır (Naxçıvan Ensiklopediyası, 2002: 220). Lakin Mudros müqaviləsinə əsasən (1918-ci il, oktyabr) Türkiyə öz qoşunlarını Naxçıvandan çıxartdı. 1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Cümhuriyyəti elan edildi. Lakin bu respublika ləğv edildikdən sonra, 1919-cu il may ayının əvvəlində ingilis komandanlığı müvəqqəti olaraq, Paris konfransının qərarlarına qədər Naxçıvan bölgəsini Ermənistan hökumətinin nəzarətinə verdi. Amma ingilis qoşunları Azərbaycanı tərk etdikdən sonra 1919-cu il iyul ayının sonunda Naxçıvan əhalisinin fəal müqaviməti nəticəsində buradakı erməni idarəçiliyi ləğv edildi (Naxçıvan Ensiklopediyası, 2002: 43).

## 1. Naxçıvanın XI Qırmızı Ordu tərəfindən İşgali

1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyəti (1918-1920) RSFSR tərəfindən işğal olunduğu üçün siyasi müstəqilliyini itirdi. İşğalçı XI Qırmızı Ordunun köməyi ilə burada sovet hakimiyyəti quruldu, yeni elan edilmiş Azərbaycan Sovet Sosialist Respublikasının bütün ərazisində hərbcilər tərəfindən vəhşiliklər başladı. Özbaşınalıqlar respublikanın bütün bölgələrində xalq üsyanlarına səbəb oldu. Lakin XI Qırmızı Ordu tərəfindən vəhşicəsinə yatırıldı.

1920-ci ildə Naxçıvan bölgəsində də vəziyyət çox ağır idi. 1920-ci il iyul ayının 28-də XI Qırmızı Ordunun I Qafqaz alayı Naxçıvan qəzasını tutdu və iyulun 29-da alay komandiri S.Kirova özünün Naxçıvana gəlməsi barədə teleqrafla xəbər verdi: "Bu gün Naxçıvan İnqilab Komitəsi təşkil olundu, tərkibinə kommunistlər və bitərəflər daxil oldu. Mirzə Əli Bektaşov İnqilab Komitəsinin sədri seçildi. Naxçıvan İnqilab Komitəsinin tərkibinə A.Qədimov, İ.Əsgərov, Q.Qazıyev, Q.Babayev və başqaları daxil oldu". 1920-ci ilin sentyabr-oktyabr aylarında Ordubad, noyabr-dekabr aylarında isə Şərur da XI Qırmızı Ordu tərəfindən işğal edildi (Mədətov, 1957 :23). 1920-ci il avqustun 3-də Ermənistan Respublikasının Xarici İşlər Naziri A.Ohancanyandan diplomatik nümayəndə T.Bekzadyana İrəvandan teleqram vuruldu və orada deyilirdi: "Dünən Şahtaxtı rayonunu işğal edən erməni qoşunlarının rəisi Naxçıvandan aşağıdakı kağızı alıb: "28 iyul 1920-ci ildə RSFSR-nın qırmızı qoşunları, eləcə də bizim

müttəfiq Qırmızı Türkiyə qoşunları bu əmrə əsasən, Ermənistana qarşı hərbi əməliyyat məqsədi olmadan sakinləri tərəfindən tamamilə tərk edilmiş Naxçıvan şəhəri və onun bölgəsinə daxil oldular. Mövcud məlumata görə, sizə həvalə edilmiş qoşunlar Naxçıvan şəhərini atəşə tutmaq və qılıncdan keçirmək üçün ona hücum etmək niyyətindədirlər. Dövlət əhəmiyyətli nəticələrə səbəb ola biləcək anlaşılmazlıqlara və mənasız qan tökülməsinə yol verməmək üçün 1920-ci il iyulun 30-da Naxçıvanı və onun ətrafını işğal etdiyimizi bildiririk. Naxçıvan şəhəri. Naxçıvan şəhərini və onun ətrafını tutan Rusiya Sosialist Federativ Sovet Respublikası və Qırmızı Türkiyənin birləşmiş qüvvələrinin komandanı Tarxanov". Məlumat və Kirovla Çiçerinin qarşısında etiraz üçün sizə bildiririk" (РГАСПИ: ф.64, оп.1, д.21, л.27,53).

**2. General Veysəl Ünüvarın Xatirələrindən**

General Veysəl Ünüvarın xatirələri böyük tarixi maraq və elmi dəyərə malikdir. Bu xatirələr Türkiyədə 1948 və 1997-ci illərdə "İstiqlal mübarizəsində bolşeviklərlə səkkiz ay (1920-1921)" adı ilə nəşr olunub. Azərbaycanda isə "Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)" adı ilə 2006-cı ildə nəşr edilmişdir (General Veysəl Ünüvar, 2006). O, 1918-ci ildə Kazım Qarabəkirin ordusunun tərkibində Naxçıvana gəlir. 1920-1921-ci illərdə Türkiyənin müvəqqəti fövqəladə nümayəndəsi statusunda Naxçıvanda olmuşdur. Türk generalının xatirələri 1920-ci illərin əvvəllərində Naxçıvan tarixinin az məlum olan səhifələrini öyrənmək üçün mühüm mənbədir. Bir sıra siyasi-tarixi hadisələrin şahidi və iştirakçısı olaraq, onlardan danışaraq xüsusi baxışını nümayiş etdirib. Onun xatirələrinin əsas yeri erməni təcavüzünə qarşı mübarizəyə və Naxçıvana gələn rus məmurlarının və hərbi qulluqçularının simasında sovet hökuməti ilə Türkiyə hökumətinin göstərişinə əsasən sülh münasibətlərinin qurulmasına həsr olunub. General V.Ünüvar Naxçıvanın sərhədlərini daşnaklardan qorumaq və möhkəmləndirmək üçün hərbi işi genişləndirdi, səfərbərlik elan etdi, hərbi tribunal təşkil etdi.

Xatirələr ictimai-siyasi hadisələrin qaranlıq tərəflərinə işıq salır, yeni məlumat və faktları ehtiva edir.

Xatirə müəllifinin 1920-ci ildə Naxçıvanı işğal edən rus hərbçilərinin davranış və hərəkətlərindən bəhs edən hekayələri xüsusi maraq doğurur. General onların yerli əhaliyə real münasibətini açıqlayıb. Memuarların müəllifi aclığı və təqibi rus işğalçılarının siyasətinin əsas silahı adlandırıb.

Türkiyənin istiqlaliyyəti uğrunda mübarizənin fəal iştirakçısı, 1920-1921-ci illərdə Türkiyənin fövqəladə nümayəndəsi kimi Naxçıvanda olmuş general Veysəl bəy Ünüvar öz xatirələrində yazırdı ki, burada heç kimin həqiqi bolşevizm haq-qında təsəvvürü yox idi. Yerli insanlar sadəlövhcəsinə inanırdılar ki, bolşevizm ölkədə aclığı və yoxsulluğu aradan qaldırmaq,

hər bir insana ləyaqətlə yanaşmaq deməkdir. Naxçıvan əhalisi bolşeviklərin bir şüar kimi yaydıqları "insani" (insanpərvər) münasibət ideyasına inanır və qəbul edirdi. Bolşeviklər əvvəlcə yerli əhalinin gözündə ədaləti, vicdanı, mərhəməti təcəssüm etdirərək, guya dünya cənnəti və qızıl dövr yaratmaq niyyətində idilər (General Veysəl Ünüvar, 2006: 25). Kommunistlər, türk generalının yazdığı kimi, yerin cənnətə çevriləcəyinə, "insanların mələk olacağına", dünyada qanunsuzluq törədən insanın qalmayacağına söz vermişdilər. Onlara bunu etməyin mümkün olmadığı bildiriləndə bolşeviklər cavab verirdilər ki, əlbəttə ki, bunu etmək çox çətindir, eynilə göydən yerə ulduz endirmək kimidir və bu səbəbdən onların simvolu ulduzdur (General Veysəl Ünüvar, 2006: 27).

General Ünüvar öz xatirələrində bolşevik zülmünü səciyyələndirir ki, bu da erməni zorakılığını çox aşdığı üçün onu unutdurur (General Veysəl Ünüvar, 2006:32). Veysəl bəy yazırdı ki, bolşeviklər bütün ərzaqları öz ehtiyacları üçün rekvizisiya edirdilər. Nəqliyyat vasitələri də ələ keçirilib. Bolşeviklərin təqsiri ucbatından bütün iqtisadi həyat məhv edildi (General Veysəl Ünüvar, 2006: 54).

General rus əsgərlərinin davranışını təsvir edib. Məsələn, bir gün Qırmızı Ordunun iki əsgəri qadın hamamına soxulub, lakin hərbi polis əsgərləri (türklər) onları hamamdan çıxarıb döyüblər. Lakin bu fakt barədə bolşevik briqada komandirinə hətta xəbər verilməmişdir (General Veysəl Ünüvar, 2006: 54). Belə ki, XI Qırmızı Ordunun əsgərləri Azərbaycan xalqının milli ənənələrinə məhəl qoymur, adət-ənənələrinə hörmət etmirdilər.

Veysəl bəy yazır ki, rus bolşevikləri Naxçıvanı ələ keçirərək, onun əhalisinin həyat şəraitini və maraqlarını nəzərə almadılar. Əvəzində acından ölməmək üçün xalqı Kommunist Partiyasına üzv olmağa dəvət edirdilər (General Veysəl Ünüvar, 2006: 57).

Naxçıvan hadisələrinin şahidi olan türk generali Veysəl bəy Ünüvar öz xatirələrində inqilab komitələrinə seçkilərin necə keçirildiyi məsələsinə toxun-muşdu. O, yazırdı ki, bolşevik siyasətini yerli həyata daxil etmək üçün dövlət orqanlarında marionet adamlar lazım idi. Məsələn, Cəhri kəndində bolşeviklərin nümayəndələrini və Ünüvarı 70 yaşlı yerli sakin mehribancasına qarşıladı və evinə apardı. Ondan soruşublar ki, kənd sakinlərindən kim hamıdan kasıbdır. Bir çoban gətirdilər, ona əmr tonunda dedilər ki, o, bu andan inqilab komitəsinin sədridir. Çoban savadsız olduğunu, heç nə bilmədiyini əsas gətirərək uzun müddət razılaşmadı. Ünüvar demişkən, bədbəxt hardan biləydi ki, adi insanların savadlı olması lazım deyil. Əksinə, bolşevik hakimiyyətinin qurulması üçün onların təhsilsiz olması gərək idi. Çobanın vəzifəni qəbul etməməsi 1918-1920-ci illərdə Azərbaycan Cumhuriyyətinin müstəqil milli hökumətinin biliyə və elmə yaratdığı hörməti nümayiş etdi. Lakin çoban zorla inqilab

komitəsinə təyin olundu. Xatirələrin müəllifinin yazdığına görə, bolşeviklər vəzifə və təqdim olunan hədiyyələrin şirinliyini daddıqdan sonra onun qarmağa keçməsinə və gələcəkdə əmrlərə qarşı çıxmayacağını düşünürdülər (General Veysəl Ünüvar, 2006: 62-63).Sonrakı hadisələr bolşevik taktikasının "düzgün" olmasını təsdiqlədi.

Ünüvar öz xatirələrində qeyd edir ki, işğalın ilk mərhələsində rus işğalçıları yerli sakinlər arasında bolşeviklərin bir tikə çörəyi kasıblarla bərabər bölüşdürmək niyyəti nəzəriyyəsini yaymışdılar. Yerli sakinlər gözlədi, lakin bu nəzəriyyənin həyata keçirilməsini görmədilər. İkinci mərhələdə xalqın əlində olanının alınaraq Kommunist Partiyasının üzvlərinə verildiyini görən əhali tam əksinin şahidi oldu. Bolşeviklərin siyasətindən məyus olan xalq müqavimətə üz tutur (General Veysəl Ünüvar, 2006: 64).

Məlum olduğu kimi, Naxçıvanda Əbrəqunus (Surab, Ərəzin, Əbrəqunus kəndləri) və Şahbuz rayonunu (Keçili kəndi və s.) əhatə edən antisovet üsyanı başladı. Üsyan böyük qəddarlıqla yatırıldı. Həbs olunan 89 üsyançıdan 50-si güllələndi, qalanları müxtəlif müddətlərə azadlıqdan məhrum edildi, 3 nəfər isə (onlardan ikisi ailəsi ilə birlikdə) sürgün edildi (General Veysəl Ünüvar, 2006: 103).

Bolşeviklərin humanizm naminə hərəkətləri haqqında dedikləri sözlər əməlləri ilə ziddiyyət təşkil edirdi və bu, onlara qarşı nifrət doğururdu. Bolşeviklər Naxçıvandan qızıl daşıdılar, nüfuzlu insanları məhv etdilər, əhalini aclığa məruz qoydular. Hətta itkilərin ödənilməsini və hərbçilər tərəfindən apardıqları əşyaların əvəzinə pulun qaytarılmasını tələb etdiyi üçün bir kasıbın güllələnməsi kimi dəhşətli hadisə də olmuşdur (General Veysəl Ünüvar, 2006:93-94). Veysel Ünüvar aclığı və zülmü Rusiya siyasətinin aləti adlandırırdı (General Veysəl Ünüvar, 2006:95).

## 3. Naxçıvanın ağır vəziyyəti və xalq üsyanları

1920-ci il sentyabrın 30-da Q.Orconikidze (Bakı) ilə B.Leqran (Tiflis) arasında söhbət baş tutdu (Morze). B.Leqran dedi ki, türklərin Naxçıvanda mövcudluğunu nəzərə alaraq, müqaviləyə əsasən, Qırmızı qoşunların mühafizəsi altında olan Naxçıvandan türklərin hər hansı hücumunu qeyri-mümkün etmək üçün bütün tədbirləri görmək lazımdır. Bu, çox vacibdir, XI Ordunun buna xüsusi diqqət yetirməsini xahiş edirəm ... Əgər türklər mane olsalar, onlara Naxçıvan qəzasını tərk etmələrini təklif etmək lazımdır. B.Leqran cavab verdi ki, "indi Naxçıvandakı türk hərbi dəstələrini öz əlimizdə saxlamaq vacibdir. Hazırda əsas məsələ budur" (РГАСПИ: ф.64, оп.1, д.21, л.153).

1921-ci il yanvarın 28-də Cəhri kəndində, fevralın 18-də isə Naxçıvan qəzasının Qaraçux və Tirkeş kəndlərində yerli əhali yeni sovet hakimiyyətinə qarşı çıxdı. Lakin xalq

üsyanları Naxçıvan çekasının sədri B.Vəlibəyov və AKP(b) üzvü, "Bakı zəhmətkeşlərinin nümayəndəsi" Xancan Hüseynovun başçılığı altında dərhal yatırıldı (Mədətov, 1957: 24)

Naxçıvan Respublikasının İnqilab Komitəsinin Sədri A.Qədimov 1921-ci il martın 23-də komandir A.Hekkerə və İnqilab Hərbi Şurasının üzvü Q.Orconi-kidzeyə göndərdiyi teleqramda Naxçıvan bölgəsinin "xarabalıqlar yığını" olduğunu bildirirdi. O, yazırdı ki, rayonun taxılçılıq zolağında, Şərurda taxıl daşnaklar tərəfindən aparılmış, Naxçıvan qəzası isə bütün ehtiyatlarını qaçqınlara və Qırmızı Ordu əsgərlərinə verib. 1920-ci ildə ordunun ehtiyacları üçün əhalidən mal-qara, hətta bir çox məişət əşyaları götürüldü. Beləliklə, müstəqil bir vahid kimi tanındığı vaxtda Qırmızı Naxçıvan bölgəsi iqtisadi cəhətdən son dərəcə çıxılmaz və kritik bir vəziyyətə düşüb. Teleqramda deyilirdi ki, respublikanın elə bir guşəsi yoxdur ki, orada aclıqdan ölən kəndlinin ürək ağrıdan iniltisi eşidilməsin. Bu arada Naxçıvanın ərazisi vasitəsilə İrandan Ermənistana on minlərlə pud buğda ötürülürdü ki, ondan da Naxçıvanın ehtiyacları üçün heç nə ayrılmırdı (Иванов, 2009: 58].

İşğal dövründə Azərbaycan SSR çoxlu sayda qaçqınla, əsasən də erməni təcavüzündən əziyyət çəkən müflisləşmiş kəndlilərlə dolmuşdur. Əmək Komissarlığının qaçqınlar şöbəsinə Əhməd bəy Pepinov rəhbərlik edirdi və onların vəziyyətini yaxşılaşdırmaq üçün çox səy göstərirdi. Qaçqınlar şöbəsi taxıl alıb qaçqınlara paylamaq barədə göstəriş verdi. Lakin yerlərdə ərzaq idarələri qaçqınlar şöbəsinin səlahiyyətli nümayəndələrinə taxıl almağa icazə vermirdilər. Ə.Pepinovun təşəbbüsü ilə 1920-ci il avqustun əvvəlində qaçqınların ərzaqla təminatı məsələsinin müzakirəsi üçün Azərbaycan İnqilab Komitəsi sədrinin müavini M.D.Hüseynovun sədrliyi ilə XI Ordunun ərzaq komissiyası və Xalq Ərzaq Komissarlığının müşavirəsi çağırıldı. Bu müşavirədə məlum oldu ki, bütün respublika XI Qırmızı Ordunu təmin etdiyi üçün bu ordunun ərzaq komissiyası taxıl tədarükünə icazə verə bilməz. Ə.Pepinov komissarlığın kollegiyasında və Azərbaycan İnqilab Komitəsinin Kiçik Şurasında məruzə ilə çıxış edərək, qaçqınları təmin etmək və əkin üçün heç olmasa minimum miqdarda taxılın ayrılmasının zəruriliyini əsaslandırdı. O, hərbi idarədən müəyyən ərazini tədarük üçün qaçqınlar şöbəsinə ayrılmasını və ya özünün anbarlarından müəyyən miqdarda ərzaq verilməsini xahiş etdi. Lakin XI Ordunun ərzaq komissiyası qəti imtina ilə cavab verdi. Qaçqınlar şöbəsi kollegiyanın razılığı və Azərbaycan İnqilab Komitəsinin sanksiyası ilə pul yardımına (böyüklər üçün 1000 rubl, uşaqlar üçün 500 rubl) keçməyə məcbur oldu (АОПД УДП АР: ф.1, оп.1, д.49, л.35).

Təəssüf ki, pul yardımı effektli olmadı. Azərbaycan xalqı Zəngəzurdan, Şamaxıdan, Qarabağdan, Muğandan, İrəvan quberniyasından, Qars vilayətindən qıtlıq, bahalıq, aclıq və xəstəlik şəraitində qaçqın düşmüş, erməni təcavüzündən möcüzəvi şəkildə canını qurtaran,

lakin çətin həyat şəraiti nəticəsində həlak olan on minlərlə qaçqın soydaşını itirdi. Bu işdə, şübhəsiz ki, qaçqınlara kömək əlini uzatmayan tüğyan edən işğalçı XI Qırmızı Ordunun günahı var idi.

Zəngibasar, Vedibasar, Aralıq, Şərur, Sürməli və qismən də Naxçıvan qəzalarından, Qars bölgəsindən sayı 1 milyon nəfərə çatan qaçqınlar İrana keçdilər. Hər gün 300-ə qədər insan aclıqdan və xəstəliklərdən ölürdü. 1920-ci il avqustun 1-dən avqustun 7-dək Arazın sahilində aclıqdan, ilan və həşərat sancmasından ölənlərin 6000-ə qədər cəsədi aşkar edilmişdir. 1920-ci ilin sentyabrında AKP MK öz nümayəndəsini Naxçıvan şəhərinə göndərərək, qaçqınlara yardım göstərmək üçün onu 10 milyon rublla, Xalq Səhiyyə Komissarlığı isə öz nümayəndəsini lazımi dərmanlarla təmin etdi (АОПД УДП АР: ф.1, оп.1, д.246, лл.30,31,34). Beləliklə, bu dəhşətli nəticələri görən Kommunist Partiyası ən azından gecikmiş tədbirlər gördü.

Bununla belə, qaçqınlar şöbəsinin işçiləri günahlandırıldı. “Xalqın əmlakına etinasız, cinayətkar münasibətə görə” qaçqınlar şöbəsinin işçiləri Pepinov, Bron və Plavinski Ali İnqilab Tribunalına təhvil verildilər. İstintaq zamanı həmin işçilər tərəfindən bəzən şifahi tələblər əsasında qaçqınlara tekstil məmulatlarının və geyimlərin verilməsi haqqında 23 sayda hesabatdankənar sərəncamlar faktı aşkar edilmişdir (АОПД УДП АР: ф.1, оп.1, д.97, л.17).

Sonradan ərazi məsələsi tarixi torpaqlarını itirmiş Azərbaycanın xeyrinə həll olunmadı. Sovet inzibati bölgüsünə görə, keçmiş Zəngəzur qəzasının Sisian, Gorus, Qafan və Mehri rayonlarından ibarət qərb hissəsi Ermənistan SSR-ə birləşdi, şərq hissəsi isə – Zəngilan, Qubadlı və Laçın rayonları – Azərbaycan SSR-in tərkibində qaldı. Beləliklə, azərbaycanlı qaçqınların böyük hissəsi tarixi vətənini itirdi. Lakin Naxçıvan, Moskva (16.03.1921) və Qars (13.10.1921) müqavilələrinə əsasən, muxtar ərazi statusunda Azərbaycan SSR-in tərkibində qalmışdır (Naxçıvan Ensiklopediyası, 2002: 261, 325]. Həmin müqavilələr bu günə kimi Azərbaycanın tərkibində Naxçıvanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təminatçısıdır.

**4. “Sovet iğtişaşı” 1925-ci ildə**

Sovet işğalının nəticələri o qədər ağır oldu ki, Naxçıvanda vəziyyət uzun müddət kritik olaraq qaldı. 1920-ci ilin siyasi hadisələri Naxçıvanda uzun illər sonra da insanların taleyinə təsir etdi. Belə ki, SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkov 1925-ci ilin martında Zaqafqaziyada olarkən Naxçıvan MSSR-in xarabalığından və yoxsulluğundan heyrətlənərək, onun vəziyyətini “sovet iğtişaşları” adlandırıb və Azərbaycan hakimiyyətini təcili tədbirlər görməyə çağırıb ki, bu muxtar respublika dünya inqilabi ideyalarına xidmət etsin, sovet respublikası nümunəsinə, Yaxın Şərq ölkələri üçün isə sovet hakimiyyətinə dair əyani təşviqata

çevrilsin. Azərbaycan rəhbərliyi ağır vəziyyətdə olan respublikaya lazımi köməklik göstərmək əvəzinə, məsuliyyətdən yayınaraq, "sovet iğtişaşının" səbəblərini Naxçıvan MSSR-da hakimiyyətin "xan-bəy ünsürü" tərəfindən ələ keçirilməsi kimi şərh etdi. 1925-ci il martın sonunda Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı M.C.Bağırovun sədrliyi ilə ora qeyri-məhdud səlahiyyətlərə malik Xüsusi Komissiya göndərildi. Zaqafqaziya Vilayət Partiya Komitəsinin katibi Q.K.Orconikidze komissiyaya "tam qətiyyətlə hərəkət etmək" hüququ verdi. 50 məsul işçidən ibarət "qara siyahı"dan 48 nəfər repressiyaya məruz qaldı. Komissiya öz qərarı ilə 13 rəhbəri partiyadan xaric etdi, 40 nəfər həbs edilərək xüsusi vaqonda Bakıya aparıldı. Həbslər 1925-ci il aprelin 5-dən 6-na keçən gecə "Varfolomey gecəsi"ni xatırladan ailələrə dəhşət yaşatmaq məqsədi ilə həyata keçirildi. Dağılmış və yoxsullaşmış Sovet Naxçıvanını zorla proletar həyat tərzinə gətirilməsi uğurlu alınmadı. Dinc Naxçıvanın üzərinə Xüsusi Komissiyanın "təcavüzü" sovet hökumətini daha da nüfuzdan saldı (Иванов, 2009:2].

**Nəticə**

Beləliklə, 1920-ci il sovet işğalı Naxçıvan əhalisinin müsibətlərini daha da artırdı. Sovet ideoloqlarının qürurla təbliğ etdiyi XI Qırmızı Ordunun "beynəlxalq yardım və azadlıq missiyası" əslində yoxsulluğa, viranəliyə, tarixi torpaqların itirilməsinə və repressiyalara səbəb oldu. Naxçıvanın zorla sovetləşdirilməsinin bu ağır nəticələri sonrakı illərdə də davam etdi. 1920-ci illərin ortalarında baş verən repressiyalar buna əyani sübutdur.

**Kaynakça**

General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: "Əcəmi", 2006, 104 c.

Qasımov C. Yaddaşın bərpası. – Bakı: Mütərcim, 1999, 256 s.

Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və Naxçıvan MSSR-nin təşkili // Azərbaycan kommunisti, 1957, №8, c.21-27.

Naxçıvan Ensiklopediyası, Bakı, Azərbaycan Milli Elimlər Akademiyası, 2002.